# “Atatürkün fikir və düşüncələri”



**Böyük Atatürkün fikir və düşüncələri həmişə Türkiyəni, türk xalqını sevənlərin maraq və diqqətini cəlb etmişdir. Tanınmış şərqşünas alim Allahşükür Qurbanov Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün mənəvi aləmini, mübarizəsini və ideyalarını əks etdirən tarixi abidənin şərəfli səhifələrini ön sözlə oxuculara təqdim edir.**

**“Respublika”.**

*Atatürk Türkiyə tarixində ümmətdən millət yaradan müstəsna şəxsiyyətdir. O, türk millətçiliyinin, türk rəşadət və qəhrəmanlığının, türk siyasi, diplomatik və hərbi düşüncəsinin simvoludur. Mustafa Kamal parçalanmış, əraziləri əlindən alınmış, tarix səhnəsindən silinməkdə olan Osmanlı imperiyasının dağıntıları üzərində Atatürk prinsipləri adlanan prinsiplər—cümhuriyyətçilik, xalqçılıq, dövlətçilik, dünyəvilik və inqilabçılıq prinsipləri əsasında Türkiyə Cümhuriyyəti dövlətini yaratmaq, ölməkdə olan türk ruhuna yenidən can verməklə şərəfli türk tarixini və qəhrəman türk millətini təhqirdən və tarixi ləkədən xilas etmişdir. O, türk millətinin milli azadlıq uğrunda mübarizəsinin ideologiyasının, taktikasının, türk cəmiyyətinin siyasi, ideoloji, sosial əsaslarının, Türk Cümhuriyyətinin mənəvi-əxlaqi normalarının ilk müəllifidir. Deyildiyi kimi, “Günəşlə yanaşı duran bir vicdan” ifadəsi sanki Atatürkün boyuna biçilmişdir. Atatürkdən tarixə çox zəngin düşüncə irsi qalmışdır. Professor Utkan Kocatürkün çap etdirdiyi “Atatürkün fikir və düşüncələri” kitabı bu irsin cüzi bir hissəsini əhatə edir. Kitaba daxil olan seçmələr Atatürkün mənəvi aləminin ayrı-ayrı nurlu şəfəqləridir.*

***(əvvəli 2, 4, 15 avqust, 27 oktyabr, 4, 15, 21, 25, 28 noyabr, 2 və 4 dekabr tarixli saylarımızda)***

Əsla şübhə etmirəm ki, türklüyün unudulmuş böyük mədəni siması və böyük mədəni qabiliyyəti bundan sonrakı inkişafı ilə gələcəyin yüksək mədəniyyət üfüqündə yeni bir günəş kimi doğacaqdır!

“Türkəm!” deyən necə də xoşbəxtdir!

Milli hədəf məlum olmuşdur. Bu hədəfə aparan yolları tapmaq müşkül bir iş deyildir. Demək olar ki, heç bir şeyə möhtac deyilik, təkcə bir şeyə çox ehtiyacımız vardır. Çalışqan olmaq! Cəmiyyətimizdəki xəstəliklərimizi müəyyənləşdirsək, görərik ki, çalışqan olmaqdan başqa və ondan mühüm heç bir xəstəliyimiz yoxdur. Bu halda ilk işimiz bu xəstəliyi əsaslı şəkildə müalicə etməkdir. Milləti çalışmağa öyrətmək lazımdır. Sərvət və onun təbii nəticəsi olan rifah və səadət yalnız və yalnız çalışanların haqqıdır...

Türkiyə Cümhuriyyətinin bugünkü gəncliyinə və yetişməkdə olan uşaqlarına müraciət edirəm: Qərb səndən, türkdən çox geridə idi. Düşüncədə, məzmunda tarixdə bu belə idi. Əgər bu gün Qərb texnikada bir inkişaf nümayiş etdirirsə, ey türk övladı, o sənin qəbahətin deyil, səndən əvvəlkilərin bağışlanılmaz diqqətsizliyinin nəticəsidir. Bunu da deyim ki, sən zəkalısan, bu məlumdur. Ancaq zəka öz yerində. Daima çalışqan ol!

Türk balalarının yüksək qabiliyyətinə qətiyyətlə inanıram.

Bu gün milli hədəfimiz ən mədəni millətlərin inkişaf səviyyəsinə çatmaq, hətta bu səviyyəni aşmaqdır. Bu, əsla imkansız deyildir. Türkün zəkası, doğuşdan imkanları buna qadirdir. Yetər ki, türk milləti hədəfini düzgün seçsin və o hədəfə doğru əzmkarlıqla irəliləsin.

Ey türk milləti! Sən yalnız qəhrəmanlıq və cəngavərlikdə deyil, fikirdə və mədəniyyətdə də insanlığın şərəfisən. Tarix yaratdığın mədəniyyətlərin mədhlərilə doludur. Varlığına qəsd edən siyasi və ictimai faktorlar bir neçə əsrdir ki, yolunu kəsmiş, addımlarını ağırlaşdırmış olsa da, on min illik düşüncə və mədəniyyət mirası ruhunda bakirə və tükənməz bir qüdrət kimi yaşayır. Hafizəsində minlərlə və minlərlə illərin yaddaşını daşıyan tarix mədəniyyət sahəsində layiq olduğun yeri sənə öz barmağı ilə göstərir. Tarixin göstərdiyi istiqamətə doğru yeri və yüksəl! Bu, sənin həm haqqın, həm də vəzifəndir!

Amalımızı açıq şəkildə ifadə etməliyik. Ona inanmalı və yorulmadan ona doğru getməliyik... Fəqət bütün bu xoş niyyətə, göstərilən bütün inadkarlığa, qətiyyət və dözümlülüyə, əldə edilən bütün birlik və bərabərliyə baxmayaraq, yenə də bütün bu xoş niyyətlərin qarşısını almağa çalışan insanlara təsadüf ediləcəkdir. Bəlalərinə qarşı bütün millət çox sərt şəkildə cavab verməlidir.

Biz milli düşüncənin tətbiq olunmasında çox gecikmiş və çox laqeydlik göstərmiş bir millətik. Bunun vurduğu zərərləri daha çox çalışmaqla aradan qaldırmalıyıq.

Türk millətçiliyi inkişaf prosesində, millətlərarası münasibətlərdə bütün müasir millətlərlə paralel və onlarla birlikdə, eyni ahənglə fəaliyyət göstərməklə bərabər, türk ictimai həyatının özünəməxsus səciyyələrini və özünün müstəqil kimliyini mühafizə etməkdən ibarətdir.

Milli varlığın çox bariz əlamətlərindən biri dildir. “Mən türk millətindənəm” - deyən insan hər şeydən əvvəl və mütləq türk dilində danışmalıdır. Türkcə danışa bilməyən bir insan özünün türk mədəniyyətinə, türk cəmiyyətinə bağlılığını iddia etsə də, ona inanmaq doğru olmaz.

Türk millətinin milli dili və milli mənliyi onun bütün həyatında hakim və əsas olmalıdır.

Türk milləti milli hissi dini hisslə deyil, insani hisslə yanaşı düşünməkdən zövq alır. Öz vicdanında milli hisslə yanaşı, insani hissin şərəfli yerini qorumaqla fəxr edir. Çünki türk milləti bilir ki, bu gün mədəni inkişaf yolunda müstəqil, lakin onunla paralel olaraq inkişaf edən mədəni millətlərlə qarşılıqlı insani mədəni münasibət, əlbəttə, inkişafımıza lazımdır...

Doğrudur, bizi millətçi adlandırırlar. Ancaq biz elə millətçilərik ki, bizimlə əməkdaşlıq edən bütün millətlərə hörmət bəsləyirik. Bizim millətçiliyimiz hər halda, eqoist və qürurlu millətçilik deyildir.

Türkiyə Cümhuriyyətini yaradan türk xalqına türk milləti deyilir.

Türk millətinin strukturunda təsiri olduğu görünən təbii və tarixi faktorlar bunlardır: siyasi birlik, dil birliyi, yurd birliyi, irq və mənşə birliyi, tarixi birlik, mənəvi birlik.

Türk millətinin təşəkkülündə mövcud olan bu şərtlərin digər millətlərdə hamısının bir yerdə olmadığı görünür. Millətə daha ümumi bir tərif verə bilmək üçün belə deyək: bir cəmiyyətə millət deyə bilmək üçün bu şərtlərin hamısının və ya bir hissəsinin eyni zamanda o cəmiyyətdə olması lazımdır. Bütün millətlər tamamilə eyni şərtlər əsasında formalaşmadığı üçün hər bir millətin təşəkkülü ayrı-ayrı dəyərləndirilməlidir. Başqa cür millətə tərif vermək çətindir.

Millətimiz ən yüksək mədəniləşmə səviyyəsində, ən parlaq inkişaf dövründə, ən şanlı və qüdrətli tarixini yaşayarkən, digər bəzi millətlər bizim millətin zərbələri qarşısında öz kimliklərini tapmış və bugünkü vəziyyətə sahib olmuşlar. Biz isə o millətlərin oyanışı qarşısında çox dərin bir dalğınlıq içərisində yolumuza davam etmişik.

Biz, həqiqətən millətpərvərik, türk milliyyətçiləriyik. Cümhuriyyətimizin istinadgahı türk cəmiyyətidir. Bu cəmiyyətin fərdləri nə qədər türk mədəniyyətinə malik olsa, o cəmiyyətə istinad edən cümhuriyyət də o qədər qüvvətli olar.

Vətənin hər parçası istisnasız türk tarixinin maddi və qüdrətli istinadgahıdır. Türklərin vətən sevgisilə dolu sinələri düşmənlərin məlun ehtiraslarına qarşı daima dəmirdən bir divar kimi yüksələcəkdir. Lazım olduğu zaman bir nəfər kimi əzmkarlıq və qətiyyətlə çalışmağı bacaran millət, əlbəttə, böyük bir gələcəyə layiq olan millətdir.

Vətən torpağı, sənə hər şey fəda olsun... Hamımız sənin yolunda fədaiyik...

Millət üçün və bütün millət tərəfindən görülən işlərin dəyəri bütün dəyərlərdən üstün tutulmazsa, o zaman milli tarix məfhumunun dəyəri olmaz.

...Yetkin bir millətdə milli əxlaqın tələbləri həmin millətin ayrı-ayrı fərdləri tərəfindən qeydsiz-şərtsiz, vicdanla, hisslə və şövqlə yerinə yetirilməlidir. Ən böyük milli həyəcan budur.

Əxlaqın milli və ictimai olduğunu qəbul etmək ümumi milli vicdanın ifadəsidir və əxlaqın müqəddəsliyini tanımaqdır. Əxlaq müqəddəsdir, çünki ona bərabər başqa dəyər yoxdur.

Milli əxlaqımız mədəni əsaslarla, azad fikirlərlə qidalanmalıdır və kamilləşməlidir. Bu, çox mühümdür. Xüsusilə vurğulamaq istəyirəm ki, təhdidə əsaslanan əxlaqın fəziləti yoxdur... Əxlaqın millətin təşəkkülündə yeri çox mühümdür. Hər millətin özünəməxsus adət-ənənələri, milli xüsusiyyətləri vardır. Bir millət başqa bir millətin təqlidçisi olmamalıdır. Çünki təqlidçi millət nə təqlid etdiyi millətin eynisi ola bilməz, nə də öz milli xüsusiyyətlərini saxlaya bilməz. Bunun nəticəsi isə acıdır.

...Bütün uğurların sirləri, bütün qüvvət və qüdrətin əsl mənbəyinin millətin özü olduğuna qətiyyətlə inanıram... Başladığımız bütün işlərdə millətimizin böyük qabiliyyəti və sağlam düşüncəsi əsas yol göstərənimiz, başlıca uğur qaynağımız olmuşdur.

Türk millətinin və türk zəkasının aradan qaldıra bilməyəcəyi heç bir çətinlik yoxdur.

Mənimçün ən böyük qorunma yeri və şəfaət mənbəyi millətimin qucağıdır.

Mühüm bir vəzifənin yerinə yetirilməsində məndən əvvəl işə girişən millət olmuşdur... Bu millət tükü tərpənmədən mübarizə uğrunda, mənim uğrumda canını verməyə hazır olmasaydı, mən heç bir iş görə bilməzdim...

## DİN VƏ İSLAM DİNİ

Din vardır və lazımdır. Təməli çox sağlam olan bir dinimiz vardır. Materialı yaxşıdır, fəqət uzun əsrlərdən bəri ona diqqətsizlik göstərilmişdir. Suvağı töküldükcə yeni suvaqla binanı möhkəmləndirmək ehtiyacı hiss edilməmişdir. Əksinə, bir çox yad ünsürlər—təfsirlər, xurafatlar bu binanı daha çox köhnəltmişdir. Bu gün bu binaya toxunmaq olmaz, bu bina təmir də edilə bilməz. Ancaq zaman keçdikcə bu binanın çatları dərinləşəcək və sağlam təməl üzərində yeni bir bina tikmək lüzumu yaranacaqdır.

**(davamı növbəti saylarımızda)**